# Qadınlarımız ölkənin ictimai-siyasi həyatında fəallıq göstərirlər

❐ ***Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasət nəticəsində bu gün Azərbaycan Xalq Cümhuriyyətinin layiqli varisi kimi tanınan müasir müstəqil Azərbaycanda demokratik dövlət quruculuğu daha da inkişaf etdirilir. Bütün bunların fonunda qadın hüquqlarının qorunması məsələsi də öz aktuallığını qoruyub saxlayır. Bu gün müstəqil Azərbaycanın qadınları parlamentdə, icra hakimiyyəti orqanlarında, bələdiyyələrdə, təhsil, səhiyyə sahələrində, biznes strukturlarında, kənd təsərrüfatında, orduda, idmanda, hüquq -mühafizə orqanlarında, İKT sahəsində kişilərlə bərabər təmsil olunurlar.***



Ötən müddətdə qadınlar ölkəmizin xüsusən təhsil, səhiyyə və mədəniyyət sistemlərinin müasir əsaslar üzərində qurulmasında əzmkarlıqla çalışmış, nailiyyətlərlə zəngin yol keçmişlər. Şərq qadınları arasında bir sıra sahələrdə ilk addımların Azərbaycan qadını tərəfindən atılması ona ənənəvi olaraq cəmiyyətimizdə böyük ehtiram bəslənməsinin, onun öz bilik və bacarığını gerçəkləşdirə bilməsinə lazımi şərait yaradılmasının nəticəsidir.

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasından sonra ölkəmizin suverenliyi, ərazi bütövlüyü uğrunda şücaət və qəhrəmanlıqlar göstərmiş qadınlarımız həmin illərin mürəkkəb hadisələri zamanı yüksək vətənpərvərlik, əzm və istiqlal ideallarına sadiqlik nümayiş etdirirdilər. Onlar çoxəsrlik milli-mənəvi dəyərlərimizi, müqəddəs ailə ənənələrimizi bu gün də layiqincə yaşadır, ölkəmizin sosial-iqtisadi və elmi-mədəni potensialının artırılmasında, multikultural və tolerantlıq mühitinin qorunmasında qüvvələrini əsirgəmirlər. Azərbaycan dövlətinin qadınlarla bağlı apardığı ardıcıl siyasət ayrı-seçkiliyin bütün formalarını aradan qaldırmaqla qadınların bərabər hüquq və imkanlarının təmin edilməsinə yönəlmişdir.

Bu gün alim qadınlarımız dünya elminə dəyərli töhfələr verirlər. Əvvəllər qızların peşə seçimi ilə bağlı müəyyən stereotiplər olsa da, hazırda iqtisadiyyat, idarəetmə, texniki ixtisas qrupları üzrə təhsil alan qızlarımızın və bu sahədə elmlə məşğul olan qadınlarımızın sayı artır.

2018-ci ilin ölkəmizdə “Azərbaycan Xalq Cümhuriyyəti ili” elan edilməsi təsadüfi deyil. Bu, Azərbaycan dövlətinin, xüsusilə Prezident İlham Əliyevin dövlətçilik tariximizə dərin hörmət və ehtiramının təzahürüdür. Cümhuriyyətin qadınlara seçib - seçilmək hüququnu verməsi təkcə müsəlman və Şərq cəmiyyətləri üçün əhəmiyyətli olmayıb. Çünki o zaman hətta özünü demokratiyanın beşiyi elan etmiş və sözün həqiqi mənasında, müasir demokratiyanın əsaslarını yaradan cəmiyyətlər qadınların seçmək və seçilmək hüququnu tanımaq istiqamətində addım atmamışdılar.

Müasir müstəqil Azərbaycan Respublikası AXC-nin varisi kimi onun ənənələrini davam etdirir, qadınların cəmiyyət həyatında fəallığını genişləndirmək məqsədilə qarşıya mühüm vəzifələr qoyulur. Azərbaycan cəmiyyətinin inkişafına qadınlar xüsusi töhfələrini verirlər. Bir sıra sahələrdə, məsələn, səhiyyə, təhsil sahələrində qadınların iştirak payı kişilərdən çoxdur. Eləcə də bir sıra ixtisaslar üzrə təhsil alan qızların sayı oğlanlardan çoxdur. Bu da Azərbaycanda qadın hərəkatının nə qədər geniş inkişaf etdiyini bir daha təsdiqləyir. Bütövlükdə idarəçilik sahəsində çalışan qadınlarımızın fəaliyyətinin genişləndirilməsi qarşıda duran vəzifələrdəndir.

2018 -ci il mayın 30-da Bakı Konqres Mərkəzində Azərbaycan qadınına seçki hüququnun verilməsinin 100 illiyinə həsr edilmiş Qadınların V Forumu keçirilib. Forumun keçirilməsində məqsəd 1918-ci il mayın 28-də yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti dövründə bütün vətəndaşların bərabər hüquqlarının tanınmasının, xüsusilə qadınlara seçki hüququnun verilməsinin 100 illiyinin qeyd olunması, son bir əsrdə bu sahədə qazanılmış nailiyyətlərin müzakirəsi, qarşıda duran vəzifələrin müəyyənləşdirilməsi olub.

Müsəlman Şərqində qadınlara ilk dəfə seçib-seçilmək hüququnun məhz Azərbaycanda verilməsi qürur hissi doğurur. Biz Cümhuriyyət qurucularının məğrur davamçılarıyıq. Azərbaycan qadınının məğrurluğu Cümhuriyyət qurucularının fədakarlığından, müsəlman Şərqində ilk demokratik Cümhuriyyət qurmaq bacarığından qaynaqlanır.

Forumda Azərbaycan qadınının 100 il ərzində qazandığı uğurlardan danışılaraq, eyni zamanda, yeganə problemimiz olan Dağlıq Qarabağ münaqişəsinin əldə etdiyimiz nailiyyətlərimizi qorumağa imkan vermədiyi də diqqətə çatdırılıb. Qeyd edilib ki, Azərbaycan qadınları ölkəmizin ərazi bütövlüyünün qorunması işinə də öz töhfələrini verirlər. Milli Qəhrəman adını almış Azərbaycan qadınları bu məsələdə də kişilərdən geri qalmadıqlarını sübut ediblər. Azərbaycan qadınları ölkəmizin ərazi bütövlüyünü qorumaqda canlarını qurban verməkdən belə çəkinmirlər. Qadın-kişi bərabərliyi budur.

Ötən il BMT-nin Azərbaycandakı nümayəndəliyi və Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının birgə təşkilatçılığı ilə “Dayanıqlı İnkişaf Məqsədləri: Qadınlar və İnkişaf” mövzusunda konfrans keçirildi. Əsas məqsəd qadınların cəmiyyətdəki inkişafının daha da artırılmasına və gender bərabərliyini nəzərdə tutan qadınlara aid hədəf və göstəriciləri müzakirə etmək idi. Konfransda qeyd olundu ki, beynəlxalq təşkilatların hesablamalarına görə, dünyada kişilərin 70 faizi, qadınların isə 46 faizi ictimai fəaliyyətə cəlb edilib. Hazırda dünya ölkələrində gender bərabərliyinin təmin edilməsi sahəsində mühüm proqramlar həyata keçirilir və artıq 140-dan çox dövlətdə qadınların və kişilərin hüquq bərabərliyi konstitusiyada təsbit olunub.

Statistikaya görə, Azərbaycanda 2018-ci ilin əvvəlinə ölkə əhalisinin 50,1 faizi və ya 4 milyon 960,1 min nəfəri qadınlar olub. Qeyd etmək lazımdır ki, Azərbaycan qadınlarının məşğul əhalinin ümumi sayındakı xüsusi çəkisi 48,2 faizdir. Ümumi təhsil müəssisələrində müəllimlərin 79,8 faizi, orta ixtisas təhsil müəssisələrində 77,9 faizi, ali təhsil müəssisələrində 51,9 faizi, həkimlərin 65,7 faizi qadınlardır. Orta məktəblərdə şagirdlərin 46 faizi, orta ixtisas təhsili müəssisələrində oxuyanların 65,3 faizi, ali təhsil müəssisələrinin tələbələrinin 48,2 faizi qızlardır. Elmi işçilərin 56 faizini qadınlar təşkil edir. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvlərindən 8-i, müxbir üzvlərindən isə 12-si qadındır. Dövlət qulluğunda çalışanlar arasında qadınların xüsusi çəkisi 28,5 faiz, sahibkarlar arasında isə 21,5 faizdir. Milli Məclisdə qadınların xüsusi çəkisi 16,1 faizdir. 2014-cü ildə keçirilmiş son bələdiyyə seçkilərində 5236 nəfər qadın bələdiyyə üzvü seçilib.

İndi bizim qadınlarımız müxtəlif beynəlxalq təşkilatlarda təmsil olunur, ölkəmizin maraqlarını müdafiə edirlər. Həmin beynəlxalq təşkilatlar Azərbaycanda gender bərabərliyini xüsusi qeyd edirlər. Təsadüfi deyildir ki, BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi, BMT İnkişaf Proqramının rezident nümayəndəsi Qulam İshaqzai Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik fəaliyyətinin ölkə tarixində dönüş nöqtəsi və gender bərabərliyinin BMT-nin hədəflərindən biri olduğunu qeyd edib.

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson qadınlara seçki hüququnun verilməsinin cəmiyyətin dəyişməsinə səbəb olduğunu, eyni zamanda, Birinci vitse-prezident Mehriban Əliyevanın ölkədaxili və Azərbaycan hüdudlarından kənardakı fəaliyyətini təqdir etdiyini söyləyib.

BMT Baş katibinin münaqişələr zamanı cinsi zorakılıq məsələləri üzrə xüsusi nümayəndəsi Pramila Patten bildirib ki, Azərbaycan öz tarixi ilə fəxr edə bilər. O, qadınlara seçib-seçilmək hüququnun verilməsini xüsusi qiymətləndirir və qadınların ölkənin həyatında iştirakını demokratiyanın təmin edilməsində əsas şərtlərdən biri hesab edir.

Azərbaycan qadınının milli dəyərlərimizin formalaşmasındakı rolundan danışarkən, qeyd etmək lazımdır ki, xanımlarımız öz iradəsi və mərdliyi, saflığı və sədaqəti ilə cəmiyyətimizdə, xalqımızın milli dəyərlər sisteminin formalaşmasında müstəsna rol oynayıblar. Tarixə nəzər salsaq görərik ki, məhz Azərbaycanda qadınlar ölkənin ictimai-siyasi həyatında iştirak etməyə imkan verən hüquqlarla təmin edilib, bütün ölkə vətəndaşlarına eyni hüquqlar verilərək irqi, milli, dini, sinfi bərabərsizlik aradan qaldırılıb.

Vaxtilə qadınlarımız xəyallarına belə gətirmədikləri sahələrdə indi çox böyük qətiyyətlə özlərini sübut edirlər. Zaman keçdikcə həyatımızın başqa sahələrində olduğu kimi, məhkəmə hakimiyyəti orqanlarında, vəkillik fəaliyyətinin həyata keçirilməsində, prokurorluq orqanlarında qadınların təmsil olunması və bu tendensiyanın yüksələn xətt üzrə inkişafı dövlətin qadınlara göstərdiyi yüksək etimadın və qadınların özlərinə olan inamlarının nəticəsidir.

***Zərifə BƏŞİRQIZI,***
***“Xalq qəzeti”***

Xalq qəzeti.- 2018.- 18 avqust.- S.4.